# Qəm üstünə sevincini hörməyi bacar

(Əvvəli 5-ci səhifədə).

Hər kəsi olduğu kimi görüb ona yanaşmanı düzgün seçmək isə elə hər kəsə nəsib olmaz ki... Bu xüsusiyyət nəsib olan insanlar ətrafındakılar tərəfindən sevilər, seçilər. Məhz belə tanıdım mən onu...Vətənpərvər biri kimi...

Mehman Şəfiyev - yəqin ki, bu imza rayonumuzun vətənpərvər insanlarına, ələlxüsus ağrılı, acılı, dərdləri "dunya boyda" olan şəhid valideyinləri və əzizlərinə tanışdır.. Üzündə sanki bir işıq var və danışdıqca o işıq onu dinləyənlərin qəlbinə sirayət edir.

**Kimdir o?**

Mehman Elmdar oğlu Şəfiyev 1984-cü ilin avqust ayının 31-də Böyük Əmili kəndində doğulmuşdur. 1990-cı ildə Böyük Əmili kənd məktəbində birinci sinfə getmiş, 1997-ci ildən isə Hacallı kənd orta məktəbində orta təhsilini davam etdirmişdir. 2000-ci ildə Şəki Pedoqoji Texnikumunun "Milli əxlaq və İslamşunaslıq" fakültəsinə daxil olmuş, 2004-cü ildə texnikumu ərəb dili və ilahiyyat müəllimi kimi bitirmişdir. 2004-2006-cı ilin iyul ayından Hacallı kəndinin Dini İcması sədri və imamı kimi fəaliyyət göstərir.



Atası Elmdar Gülməmmədov və anası Minirə xanım evin böyük övladı olan Mehmana özündən kiçik qardaş və bacılarına örnək olmasını, insanlara qarşı xeyirxah, elobasına məhəbbət, insanlara qayğı ilə yanaşmağı tövsiyə edərdi. Bu gün onun daima insanlar arasında olması və onlara mehribanlıqla, qayğı ilə yanaşması bu tövsiyyələrin bariz nümunəsidir.

Mehman Şəfiyev həmçinin bir müddət Qəbələ TV-də "Şəhid Ömrü", "Örnəklər çeşməsi", "Onların həyatı" kimi verilişlərin layihə rəhbəri olaraq çəkilişlər etmişdir.

Mehman Şəfiyev 2019-cu ildə Məkkə və Mədinə ziyarətində olmuşdur.

Ailəlidir, 3 övladı var, məktəblidirlər. Həyat yoldaşı Günay xanımla övladlarını da məhz vətənə, torpağa bağlı, insanlığa məhəbbət ruhunda tərbiyə edərək böyüdürlər.

**Acılara məlhəm olmaq**

Bəzən insan öz xarekterini hiss etdirə bilmir, ancaq M. Şəfiyevin üzündəki xoş təbəssüm və danışıq üslubu acılı insanlara xoş bir duyğu təsiri bağışlayır.

2020-ci ilin sentiyabrın 27-si başlanan Vətən müharibəsi qəbələlilərin də bir çox ailələrinə acılar bəxş etdi: neçə igidlərimiz şəhadətə qovuşdu, onlarla gənclərimiz sağlamlıqlarını itirdilər... Bax, o ağır günlərdən ta bu günə qədər M. Şəfiyev daima onların yanındadır, onlara daima mənəvi dəstəkdədir. Və mən bunun canlı şahidiyəm. Hər kəsə o ailənin bir doğma üzvü kimi münasibət göstərir. Yaşından asılı olmayaraq hər kəs ona ürəklə öz sevincini də, dərdini də deyə bilir. Bəzən elə insanlarla rastlaşırıq ki, hansısa bir məsələni həll etməyə qadir olsa belə, ona söz deyərkən dodaqlar kilidlənir. Əlbəttə bu soyuq baxişlar... insanı uzaqlaşdırır...

Məmməd Araz öz şeriyyatında deyir ki:

*Günəşin zirvədə doğan anından,*
*Nur olub bu yurda səpələnməsək,*
*Sən kimə gərəksən, mən kimə gərək.*

* * *

*Zaman qapımızda əlində qayçı...*
*Hər adi ölçüyə, ülgüyə gəlsək,*
*Sən kimə gərəksən, mən kimə gərək...*

Vətənpərvər bir insan kimi insanlara həmişə gərəkli olduğunu onun ağır günlərdə dərdli insanların yanında olmasından , onlara müsbət aurasından hiss etdim.

**Kədər və sevinc vəhdəti**

İnsan yaşayırsa sevinc də, kədər də, nailiyyət də, məğlubiyyət də onunla yol yoldaşıdır. Bütün həyat sınaqlarından layiqincə dərs alaraq yaşamaq, müdrikcəsinə düşünərək yaşamaq və ətrafındakıları yaşatmaq üçün qəm üstünə sevinci hörməyi bacarmaq lazımdır. Məhz Mehman Şəfiyev kimi!..

*Qəm yükün qəlbimdə gizlədərəm mən,*
*Saxta sevincləri, nikbin hissləri,*
*Gözümdə, üzümdə izlədərəm mən,*
*Sevincə boğaram bitkin hissləri.*

**Bibixanım İSAYEVA.**

# Oğul oğul olarsa...

**"Oğul düşmən çəpəri"**

Atalar sözləri həmişə insanların təfəkküründə yaşadığı həyata bir kompas rolu oynayırdı. O qədər inanclı idi ki... Ağsaqqal və ağbirçəklər də hər söhbətində deyər, aid olduğu məsələlərə bir aydınlıq, bir başlanğıc kimi söylərdilər. Zaman irəlilədikcə bəzən aktuallığını itirən deyimləri nəzərə almasaq, ataların dediyi məntiqi deyimlər bu gün də hər kəsə həyatın davamında bir həqiqət işarəsidir.

"Oğul düşmən çəpəri..." - Bu deyim bizi ən ali mənada Vətəninə, torpağına kəc baxanda, xalqına, millətinə küfr edəndə, haqqı-ədaləti bərqərar etmək istəyəndə mənəvi və həqiqi güc kimi işlədilmişdir.Tarix boyu baş verən müharibələrdə şəhadətə qovuşanlar oğullardır. Sərhədlərdə keşik çəkən oğullardır! Bax, bu, oğulların düşmən çəpəri deyiminin həqiqi inikasıdır.

**Yaşaroğulları**

Rayonumuzun Mıxlıqovaq kəndində yaşayan Yaşar kişini kəndin yaşlı nəsli yəqin ki, yaxşı tanıyır. Yaşar Həmidov zəhmətsevər bir insan idi, əvvəllər poçtalyon, sonra isə briqadir işləmişdir. 10 övladı var idi, 4 qız, 6 oğul. Bəli düşmən çəpəri 6 oğul... Şair, Eynulla, İldırım, Fəzail, Sərvər, Şaiq. Hər biri insanlara davranışında, Vətənə, torpağa, xalqa sevgisində eyni. Hər biri öz zəhməti ilə öz yaşayışını təmin edən qardaşlar. Yalnız Eynulla kiçik yaşlarından yıxılaraq xəsarət almış və əlil kimi yaşamağa məcbur olmuşdur. İldırım Əfqanıstan döyüşlərinin veteranıdır. Fəzail I Qarabağ döyüşlərində şəhid olmuşdur. Hal-hazırda Mıxlıqovaq kənd məktəbi onun adını daşıyır. Sərvər I Qarabağ müharibəsi veteranıdır. Şaiqin əsgəri xidmət dövrü isə o dövrdə atəşkəs qüvvədə olan illərə təsadif etmiş, 4 ilə yaxın hərbi xidmətdə olmuşdur. Bildiyimiz kimi, atəşkəs dövründə də düşmən daima Vətən torpaqlarını atəşə tutmuş, nə qədər ayıq-sayıqlıq olsa da, şəhidlərimiz olmuşdur.

Bəli, Yaşaroğulları düşmən "çəpəri" övladlar olaraq Vətən keşiyinin müsəlləh əsgərləri olmuşlar. Bu isə onun ailədə yaratdığı mühit - verdiyi tərbiyə, özünün yaşayış tərzi və qazandığı çörəyin halallığından irəli gəlmişdir.Onu da qeyd edim ki, 30 il əvvəl mən bu zəhmət adamıyla oğlu - qəhrəman şəhidimiz Fəzail haqqında oçerk yazmaq üçün məlumat alarkən görüşmüşdüm. Allah Yaşar kişinin də, Fəzailin də məkanını cənnət etsin!

*Bir sapanda beş-on illik*
*qoyulan daşdım,*
*Düyümlənib yönəlmişdim*
*bəd əməllərə...*
**(M. Araz).**

Şəhid Fəzail ailənin dördüncü, Sərvər isə beşinci övladı idi. 1973-cü ildə doğulmuş, Yemişanlı kəndi evləri istiqamətinə yaxın olduğu üçün orta təhsilini həmin kənd məktəbində almışdı. Orta təhsilini başa vurduqdan sonra Bakıda Razin qəsəbəsində 74 saylı texniki peşə məktəbində tokar peşəsinə yiyələnmiş, Bakı fəhləsi adına zavodda 3-cü dərəcəli tokar kimi şə başlamışdır. 1991-ci ilin sentyabr ayına kimi orada işləmişdir. Qardaşı Fəzail ordu sıralarına gedən kimi Sərvər də Sabunçu qəsəbəsindəki hərbi komissarlığa gedərək əsgər getmək istədiyini bildirmiş, sentyabrın 23-də hərbi xidmətə yola düşmüşdür. O, Xanlar rayonunda 952 saylı hərbi hissədə qulluq etmişdir. Müharibənin getdikcə alovlandığı bir dövrdə o, Kəlbəcərin və Murovun erməni mənfurlarından təmizlənməsində iştirak etmişdir. Bəli, düşmən "çəpəri" olan 2 qardaş, Fəzail və Sərvər düşməndən torpaqlarımızı müdafiə etmək və işğal olunmuş əraziləri onlardan təmizləmək üçün qəhrəmanlıqla döyüşürdülər. Nə qədər məğrur səslənsə də bu həyəcanlı hissləri və ailənin nələr çəkdiyini döyüşçü və şəhid anaları daha yaxşı anlayarlar. Bu qardaşların döyüş şücaətlərinin canlı şahidləri onların bu gün həyatda olan silahdaşlarıdır.



1992-ci ilin 19 oktyabrında Ağdərə uğrunda gedən döyüşlərdə Fəzail şəhid oldu...

Qardaşı şəhid olduqdan 3 gün sonra Sərvəri 10 günlük məzuniyyətə buraxdılar... Qardaşının dəfninə çata bilməyən Sərvər ağır sarsıntı keçirdi... Sərvər Həmidov yenidən hərbi hissəyə qayıtdı, 1993-cü ilin aprel ayınadək hərbi qulluğunu davam etdirdi... Şəhid qardaşı olduğu üçün ordudan tərxis olundu. Və ondan sonrakı kiçik qardaş Şaiq hərbi xidmətə çağırıldı...

Ordudan tərxis olunduqdan indiyədək Mıxlıqovaq kəndində yaşayır. Təsərrüfatı ilə məşğul olaraq həyatına davam etmişdir. 1995-ci ildə ailə həyatı qurmuşdur. 4 övladı var, 2 qız, 2 oğlan.

**Tarix təkrarlanırmı?..**

Tarixin təkrarlanması o zaman baş verməyə bilir ki, görülən işlər yarım qalmasın, məqsədə çatılsın. I Qarabağ müharibəsinin nəticələri və torpaqlarımızın işğala məruz qalma səbəbləri o dövrün canlı şahidlərinə məlumdur və yeni nəsil də bu haqda həm şifahi, həm də yazılı mənbələrdən lazımi məlumatları öyrənmişlər. Ancaq o illərdə qəhrəmanlıq göstərərək döyüşən əsgərlər müharibədə zəfər qazanılmadığı üçün məğlub olmuş bir ölkənin vətəndaşı və əsgəri kimi həmişə məyusluq hissi keçirirdilər. Həm də 30 illik bir müddət ərzində torpaqlarımızın düşmən tapdağından təmizlənməsini övladlarına "saxladıqları" üçün əzab çəkirdilər. Axı döyüş görən hər kəs yaxşı bilirdi ki, o torpaqları düşməndən əvvəl-axır müharibə yolu ilə almaq mümkün olacaq. Nə qədər sülh danışıqları olsa da mənfur ermənilər və onların havadarları bu qiymətli xəzinə sayılan torpaqları qaytarmaq istəməyəcəklər... Məhz buna görə də, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev 2020-ci ilin iyul hadisələrindən sonra torpaqlarımızın müharibə yolu ilə alınması üçün ordunun daha da möhkəmləndirilməsinə başladı və sentyabrın 27-də Qisas müharibəsinin başlanmasını elan etdi. Xalq ordu ilə yekdil bir fikirdə oldu və "Dəmir yumruq" hərəkatı başlandı.



Ali Baş Komandanın çağırışına bütün Azərbaycan gəncliyi səs verdi. O səs verənlərin içərisində Yaşar kişinin nəvəsi də var idi.

**Yüyür mənsiz dağlaracan, buludlaracan,**
**Haray çəksən qayalarda səslənər adım...**

Şücaət Həmidov Sərvər oğlu - 2000-ci ildə dekabrın 19-da Mıxlıqovaq kəndində doğulmuşdur. Orta məktəbi bitirdikdən sonra 2019-cu il yanvarın 3-də hərbi xidmətə yollanmışdır. Gəncə şəhərində təlim keçdikdən sonra Şəmkir rayonunun Seyfəlli kəndində yerləşən "N" saylı hissədə xidmətinə davam etmişdir. (O, Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimovun əsgəri olduğu üçün fəxr edirdi). 2020-ci ilin iyul ayında əsgəri xidmətini başa vuraraq evə qayıdır. İyul hadisələri və Polad Həşimovla bərabər 12 nəfərin şəhid olması Şücaətə də ağır təsir edir...

2020-ci ilin sentyabrında başlanan Qisas müharibəsində könüllü iştirak etmək istəyən gənclərdən biri idi o. Ona görə də sentyabrın 29-da yenidən orduya qayıdır. Qayıdır ki, əmisinin, atasının əldə edə bilmədiyi zəfəri qazana bilsin. Ordumuzun gücü, Ali Baş Komandanın düzgün siyasəti onda bu inancı yaratmışdı.

Atası Sərvər Həmidov onu yola salarkən "o qayalarda, o torpaqlarda izimiz var, oğul, biz də döyüşmüşük. Qazana bilmədiyimiz qələbə ilə qayıt" sözlərini ürəyində düşünərək oğlunun gözlərinə baxmışdı...

Şücaət Həmidov Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının azad olunmasında mərdliklə döyüşmüşdür. Dəfələrlə Fəxri fərman almışdır.

Zəfər qazanıldıqdan sonra 2021-ci il yanvarın 19-da ordudan tərxis olunmuşdur. Şücaət Həmidov "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

**Zamanı tezləşdirək**

Döyüşçü döyüşə atılarkən sonrakı təltiflərini düşünmür. Onun yalnız bir məqsədi olur: bu döyüşdən qələbə ilə çıxmaq. Döyüşə hazırlaşanda da titul üçün deyil, bu torpağı yadellilərdən azad etməyi, Vətəni müdafiə etməyi düşünür. Məhz Yaşaroğulları da, nəvəsi də o düşüncənin sahibləri olmuşlar. Fəzail şəhid olmuş, Sərvər döyüşçü. İllər keçməsinə baxmayaraq onun heç müharibə veteranı adı belə yoxdur. Lakin o öz vicdanı ilə, döyüş yoldaşlarının canlı şahidliyi ilə bilir ki, döyüşçü veterandır. Oğlu Şücaət isə yüngül xəsarətlər alsa da həmişə döyüşlərdə öndə olmuşdur və atasının qəlbən aid olduğu adı - veteran adını daşıyır.

Bu günkü gəncliyə, sabahkı nəslə örnək ola biləcək bir nəslin nümayəndəsi Şücaət Həmidov yeni tarix yazan oğullardan biri kimi qəbələlilərin qürurudur. Qürurumuz sandığımız bu oğul o ağır döyüşlərin, itirdiyi şəhidlərin və sağlamlığını itirərək əlil olan silahdaşlarının canlı şahidi kimi o acıların ağır travmasını hələ də yaşayır. Psixoloji təsirlər, sarsıntılar zamanla ötür. Bu zamanı isə yalnız belə oğulların məşğul olduğu iş, aldığı təhsil və sərf etdiyi əmək tezləşdirir. Məhz buna görə də belə gənclər diqqət önündə olmalı, onlara hər kəs bacardığı diqqəti göstərməlidir. Çünki onlar bizim sabahkı tarixi vətəndaşlarımızdır.

**BİBİXANIM.**